## Kazus

"Dini tolerantlıq" Mərkəzi ölkədə rəsmi qeydiyyatdan keçmək istəyirdi. Dövlətdaxili qanunvericiliyə əsasən, hüquqi şəxsin qeydiyyatı 15 gün müddətində həyata keçirilməli, yaxud da müraciət edən şəxsə dövlət qeydiyyatına almaqdan imtina barədə yazılı məlumat verilməli idi. Müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması zərurəti yarandıqda, bu müddət daha 15 günə qədər artırıla bilər.

"Dini tolerantlıq" Mərkəzi ölkə vətəndaşlarının çoxunun mənsub olduqları dindən əlavə digər dini cərəyanların da təbliğini və tədqiqini aparırdı. Həmin Mərkəz hüquqi şəxs kimi qeydiyyatdan keçmək üçün qanunla nəzərdə tutulmuş sənədləri Ədliyyə Departamentinə göndərdi, lakin nəzərdə tutulmuş müddətin keçməsinə baxmayaraq, nə imtina, nə də ki, qediyyat haqqında qərar verildi. Ərizəçi Ədliyyə Departamentinə məktub ünvanlayaraq ləngimənin səbəblərini aydınlaşdırmağı xahiş etdi. Son məktubun göndərilməsindən 42 gün keçdikdən sonra Ədliyyə Departamentinin idarə müdiri bildirdi ki, ərizəçinin qeydiyyat sənədlərinə baxılmasının ləngidilməsi Departamentin Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı Şöbəsinin iş yükünün həddindən artıq olması ilə bağlıdır və yaxın zamanlarda ərizəçinin sorğusu cavablandırılacaq. Son məktubdan daha 60 gün keçdikdən sonra Ədliyyə Departamenti ərizəçini dövlət qeydiyyatına almaqdan imtina barədə yazılı məlumat göndərdi. Qurumun qeydiyyata alınmasından imtina üçün əsas kimi isə nizamnamədə "ləğv edilməsi" sözlərinin yerinə "fəaliyyətinə xitam verilməsi" sözlərinin yazılmasıvə sənədlərin tam, dolğun siyahısının ərizəyə bərkidilməməsi göstərildi. Bununla belə, ərizəçinin cavab məktublarına və sorğularına baxmayaraq, hansı sənədlərin çatışamamasına aydınlıq gətirilmirdi. Ərizəçilər yerli məhkəmələrə müraciət etdilər və Məhkəmə Departamentin mövqeyinin müdafiə edərək ərizəçilərin sənədlərin əslinin deyil, nüsxələrinin Departamentə göndərilməsini yerli qanunvericiliyin pozuntusu kimi qiymətləndirdi. Halbuki, sənədlərin əsillərinin və ya nüsxələrinin ərizəyə bərkidilməsi haqqında qanunvericilikdə açıq-aşkar müddəa yox idi.

Həmin qərardan apellyasiya şikayəti verildiyi zaman ərizəçilər tərəfindən yenidən (bu dəfə artıq sənədlərin orijinalları ilə) Ədliyyə Departamentinə müraciət edildi. Bu dəfə Ədliyyə Departamenti Mərkəzin fəaliyyətinin cəmiyyətdə oturuşmuş pravoslav-xristian dünyagörüşünə zidd olduğunu və cəmiyyətdə parçalanmaya səbəb olacağını əsas gətirərək ərizəçinin hüquqi şəxs kimi qeydiyyata almaqdan imtina etdi.

*Hazırladı: Gülnaz Ələsgərova*